İlqar Fəhmi

# AKVARİUM

*Teatral roman*

QANUN NƏŞRİYYATI

“Həyat teatrdır, ancaq teatr həyat deyil”.

Bu həqiqəti dərk etmək üçün əsərin qəhrəmanı bütün həyatını qurban verir. Lakin uçurum qarşısında qalanda hər şey dəyişir, illüziyalar dağılır, mənhus reallıq teatral həyatı darmadağın edir. Ölümqabağı aqoniya başlanır.

Səhnə ilə həyatı birləşdirə bilməyən baş qəhrəmanın gücü sonda yalnız səhnə ilə ölümü birləşdirməyə çatır.

Çünki üç akvariumdan ibarət müdhiş üçbucaqdan başqa çıxış yolu görünmür.

**İlqar Fəhmi. Akvarium**

Janr: roman
Yaş qrupu: 14+
Ölçü: 120x185 mm
Cild: yumşaq
Səhifə sayı: 216

Naşir: Şahbaz Xuduoğlu
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN

© Qanun Nəşriyyatı, 2026
© İ.Fəhmi, 2026

# MÜNDƏRİCAT

**Proloq** ....................7

**Epizod 1**
PREMYERADAN BİR AY ƏVVƏL ....................12
**Epizod 2**
PREMYERADAN ÜÇ HƏFTƏ ƏVVƏL ....................18
**Epizod 3**
PREMYERADAN DÖRD AY ƏVVƏL ....................45
**Epizod 4**
PREMYERADAN ÜÇ AY ƏVVƏL ....................83
**Epizod 5**
PREMYERADAN AY YARIM ƏVVƏL ....................115
**Epizod 6**
Premyeradan üç həftə əvvəl....................127
**Epizod 7**
PREMYERADAN BİR AY ƏVVƏL....................150
**Epizod 8**
PREMYERADAN DÖRD GÜN ƏVVƏL....................180

**Epiloq**
PREMYERA ....................208

# PROLOQ

Final səhnəsi yaxınlaşırdı. Gərgin, həyəcanlı sükut adamla dolu zalın üzərinə çökmüşdü.

Səhnənin arxasındakı dəmir pilləkənlə yuxarı qalxmamışdan əvvəl Sahib pərdənin arasından gözünün ucuyla zala baxdı. Məhz həmin an səhnəni üstündəki projektorlar yandı və tamaşa zalı işıqlandı. Bu bir neçə saniyə kifayət elədi ki, o qədər də böyük olmayan zalda oturan 124 tamaşaçının hər birini sifəti Sahibin gözündən keçib yaddaşına həkk olsun. Yüz iyirmi dörd sifət. Nə az, nə çox.

Yüz iyirmi beş dəvətnamə, yüz iyirmi dörd tamaşaçı. Birinci cərgədə bir stul boş idi.

Əgər əksinə olsaydı, hər şey daha yaxşı olardı. Yüz iyirmi dörd boş yer və bir nəfər tamaşaçı. Belə olsaydı hər şey öz yerini alardı, Sahib fikirləşdi, bəlkə də hər şey çoxdan öz yerindədi, bircə məndən və teatrımdan başqa.

Sahib zalda oturan 124 tamaşaçının hamısının nəinki adlarını, hətta xasiyyətlərini, həyat yollarını, talelərini əzbər bilirdi. Hər halda ona elə gəlirdi ki, bilir. Onların hamısı Sahibi nəzərində şəffaf idilər. Premyeraya dəvət

etdiyi dostlarının, yaxınlarının, hətta onların bu son pyesə reaksiyalarını da əvvəlcədən təsəvvür edirdi.

Qəfildən Sahib özünü kitabxanada hiss elədi. Elə bil ki, səhnənin projektorları kitab rəflərində səliqəylə düzülmüş 124 kitabı işıqlandırmışdı. Hər bir tanış sifət sanki bir kitabın üz qabığı idi. Amma çoxdan oxunmuş bu kitabların üz qabıqları nədənsə məhz indi, son anda birdən-birə Sahibə dəhşətli dərəcədə yad, naməlum və qeyri-adi gəldi. Elə bil nəinki kitablar, hətta üz qabıqları da dəyişməyə başlamışdı. Bu nədi belə, Sahib fikirləşdi, elə bircə bu çatmırdı.

Hərçənd ki bu kitabların nəinki üz qabıqlarındakı, hətta içindəki sözləri Sahib əzbərdən bilirdi, lakin elə bu an, bir neçə saniyənin içində tanış hərflərin arasında qeyri-adi işarələr, ieroqliflər peyda olmağa başladı. Kitabların üz qabığı göz görə-görə dəyişirdilər. Və Sahib başa düşdü ki, indi bu kitabların istənilən birini götürüb açsa, səhifələrində də eynən bu cür dəyişiklikləri görəcək. Əzbərdən bildiyi sözlər, cümlələr, abzaslar. Aralarında isə hər tərəfdən sıxılmış naməlum, yad işarələr, hərflər. Yeni, naməlum işarələr sırayla əkilmiş bostan şitillərinin arasında qəfildən peyda olaraq ora bura qaçışmağa başlayan qeyri-adi həşəratlara bənzəyirdilər.

Sahib qəfildən bu naməlumluqdan qorxmağa başladı. İyirmi-otuz il və bir neçə saniyə. Birdən-birə bütün varlığı ilə hiss elədi ki, uzun illər ərzində o, bu kitabların heç birin diqqətlə oxumayıb. Sadəcə vərəqləyərək nəzərdən keçirməklə, yalnız maraqlı yerlərinə diqqət yetirməklə

kifayətlənib, ona elə gəlib ki, kitabın mahiyyətini anlamaq üçün bunlar kifayət edər. Lakin məhz indi başa düşdü ki, bu vaxtacan o yalnız gözlə görünən hərfləri oxuya bilib. İlk baxışdan gözə görünməyən, əslində isə kitabın əsl mahiyyətini özündə cəmləşdirən bu yarımşəffaf hərflər, işarələr isə diqqətindən qaçıb.

Nədənsə Sahibin ürəyindən keçdi ki, geri qayıtsın, hər şeyi əvvəldən başlasın, bu 124 kitabın hər birini diqqətlə oxusun, təkcə sözləri, cümlələri yox, onların arasında sıxılıb qalan boşluqları, sözlərin özü qədər əhəmiyyətli olan probelləri və bu probellərin içində gizlənmiş naməlum hərfləri də hiss eləsin, mənasını anlasın…

Cəhd eləmək olardı, o halda ki, əgər bu saat zalda 124 yox, 125 tamaşaçı otursaydı.

Lakin ən vacib tamaşaçı yox idi. Sanki tale bu səhnəni, bu şan-şöhrəti, bu hörməti Sahibə verəndə əvəzində kitabxananın ən qiymətli kitabını aparmışdı. Əlbəttə ki, Sahibin səssiz razılığı ilə. Nəyisə dəyişmək isə artıq gec idi.

Dəmir nərdivanın böyüründə dayanmış səhnə tərtibatçısı onu görcək pıçıltıyla nəsə desə də, səhnədəki aktyorların qışqırığı bu səsi eşidilməz etdi. Aktyorlar sakitləşəndən sonra tərtibatçı bayaq dediyi sözü təkrar elədi.

– Sahib müəllim, montyora deyin projektorların naqillərini bərkitsin, bayaqdan iki dəfə işıqlar göz vurub. Mən deyirəm, qulaqardına vurur, düzəltmir.

O, razılıqla başını tərpətdi və tərtibatçının təəccüblü nəzərləri altında dəmir nərdivanla səhnənin yuxarısına

çıxmağa başladı. Aşağıdan yenə tərtibatçının pıçıltısı eşidildi.

– Bir şey lazımdırsa, deyin mən götürüm, siz ora niyə çıxırsız?

O, etiraz əlaməti olaraq başını yellədi və tələsmədən qalxıb səhnənin lap üstünə çıxdı. Dəmir dirəklərin üstündə yerini bərkidəndən sonra əvvəl aşağı – səhnəyə, sonra da başını yavaşca əyib adamla dolu zala baxdı. Yuxarı qaranlıq olduğu üçün tamaşaçılardan heç biri onu görmədi, hamının fikri səhnədəydi. Tamaşanın kulminasiyası idi, finala az qalırdı...

Qəfildən başı gicəlləndi. Qalxdığı yer döşəmədən cəmi altı-yeddi metr hündürlükdə olsa da, ona elə gəldi ki, yüzmərtəbəli bir evin damına çıxıb və oradan aşağı baxır. Gözləri qaraldı, dəmirlərdən bərk-bərk tutub sıxdı ki, tamaşanın artıq finalını oynayan aktyorların üstünə yıxılmasın. Bu cür tamaşanın finalını korlamaq yaxşı düşməz, fikirləşdi, ələlxüsus nəzərə alsaq ki, bu, birinci və sonuncu tamaşadır.

Zala göz gəzdirərək düşündü ki, tamaşaçıların heç biri bu tamaşanın sonuncu olacağını heç ağlına da gətirmir, bəlkə hansı birisə yenə gəlib baxmağı, bir başqası ailəsini də gətirməyi fikirləşir. Bəlkə də heç nə fikirləşmirlər, eləcə oturub nigaranlıqla bu əcaib pyesin necə qurtaracağını gözləyirlər. Yaxud kəmhövsələliklə bu sarsaq tamaşanın axınına çatmaq istəyirlər ki, tez çıxıb getsinlər evlərinə.